## İstifadəçilərin statistik məlumatlarla təmin olunması barədə onlayn sorğunun nəticələri

“2013-2017-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı”nda və Dövlət Statistika Komitəsinin iştirak etdiyi digər dövlət proqramlarında icrası 2016-cı ildə nəzərdə tutulan tədbirlər planının 6.3.6-cı “İstifadəçilərin statistik məlumatlarla təmin olunması barədə sorğunun keçirilməsi” yarımbəndinin icrası ilə bağlı cari ildə sorğu keçirilmişdir.

Sorğu özündə istifadəçilərin fəaliyyət sahəsini, onların maraq dairəsini, hansı statistik məlumatlara inamının olmasını, statistik fəaliyyətin keyfiyyət baxımından qiymətləndirilməsini, Komitənin veb səhifəsinin istifadəsinin rahatlığını, statistik məlumatların aktual, dolğun olmasının qiymətləndirilməsini, istifadəçilərə xidmət səviyyəsinin keyfiyyətini, statistik məlumatların istifadəçilərinin Dövlətstatkomun yayım təqvimindən xəbərdar olmasını, Dövlətstatkomun fəaliyyətindən nə dərəcədə razı olduqlarını və s. əks etdirən suallardan ibarətdir.

25.11.2016-cı il tarixinə sorğuda 2909 nəfər iştirak etmişdir. Sorğuda iştirak edənlərin 41 faizi qeyri-dövlət müəssisələrini, 38 faizi dövlət idarəetmə orqanlarını təmsil etmiş, 14 faizini fiziki şəxslər, 6 faizini tələbə, elmi işçilər, 1 faizini isə digər istifadəçilər təşkil etmişdir. Maraq göstərilən sahələr içərisində ən çox əmək bazarı, əhali və gender statistikası, ticarət, qiymət, milli hesablar, təhsil, elm və mədəniyyət, maliyyə və bank, sənaye, energetika, kənd təsərrüfatı, tikinti statistikası sahələri üstünlük təşkil edir.

Rəyini bildirənlərin 68 faizindən çoxu statistik məlumatlardan 3 ildən artıq istifadə etdiyini qeyd etmişdir. İstifadəçilərin 10 faizi hər həftə, 50 faizi isə hər ay statistik məlumatlardan istifadə etdiyini bildirmişdir.

Dövlətstatkomun internet səhifəsi statistik məlumatların əldə edilməsinin əsas mənbəyi kimi istifadəçilərin əksəriyyəti tərəfindən qeyd edilmişdir. Bundan sonra əsas vacib məlumat mənbəyi kimi Dövlətstatkomun nəşrləri, KİV məlumatları, fərdi şəkildə sorğu göndərilməsi göstərilmişdir.

Sorğunun “Dövlətstatkoma və onun yaydığı statistik məlumatlara etibar edirsiniz?” sualına iştirakçıların 87.0 faizi “bəli”, 9.7 faizi “qismən”, 0.4 faizi “xeyr” cavabını bildirmiş, 2.9 faizi isə münasibət bildirməmişdir.

Rəyini bildirənlərin 80 faizi statistik məlumatların hazırlanması metodlarına və istifadə olunan mənbələrə dair Dövlətstatkomun təqdim etdiyi izahedici informasiyaya-metaməlumatlara müraciət etdiyini qeyd etmişdir.

**Cədvəl 1**

Real vəziyyətə uyğunluğu baxımından Dövlətstatkom tərəfindən verilən aşağıdakı göstəricilər üzrə məlumatlara inam səviyyəsi (faizlə)

| | İnanıram | Qismən inanıram | İnanmıram | Bilmirəm |
|---|---|---|---|---|
| Əhalinin sayı | 88.0 | 6.5 | 4.0 | 1.5 |
| Əhalinin gəlirləri | 67.9 | 20.8 | 6.9 | 4.4 |
| Yoxsulluq səviyyəsi | 61.0 | 23.5 | 7.1 | 8.4 |
| İşsizlik səviyyəsi | 61.0 | 24.1 | 8.0 | 6.9 |
| Ümumi daxili məhsulun (ÜDM) artım tempi | 74.7 | 13.2 | 2.2 | 9.9 |
| Sənaye istehsalı | 73.4 | 12.9 | 1.5 | 12.2 |
| İnflyasiyanın tempi | 65.0 | 17.0 | 4.2 | 13.8 |
| Orta aylıq əmək haqqı | 72.0 | 14.8 | 3.4 | 3.8 |

Cədvəldən göründüyü kimi, sorğu iştirakçıları daha çox əhalinin sayı ilə bağlı məlumatlara inanır. Belə ki, rəy bildirənlərin 88.0 faizi bu göstəriciyə inandığını bildirmiş, 4.0 faizinin rəyi isə mənfi olmuşdur. İstifadəçilərin ikinci ən çox inandığı göstərici ÜDM-nin artım tempi olmuşdur ki, burada inananların xüsusi çəkisi 74.7 faiz təşkil etmişdir. Orta aylıq əmək haqqı ilə bağlı isə istifadəçilərin 72.0 faizi inandığını bildirmişdir. İnam baxımından ən aşağı nəticə yoxsulluq və işsizlik səviyyəsi ilə bağlı olmuşdur. Yoxsulluq səviyyəsi üzrə öz rəyini bildirənlərin 61.0 faizi inandığını bildirmiş, 23.5 faizi qismən inandığını, 7.1 faizi isə inanmadığını bildirmişdir. İşsizlik səviyyəsi üzrə isə öz rəyini bildirənlərin 61.0 faizi inandığını, 24.1 faizi qismən inandığını, 8.0 faizi isə inanmadığını bildirmişdir. Bütövlükdə, göstəricilərin hər biri üzrə inananlar rəyini bildirənlərin böyük çoxluğunu təşkil etmişdir.

**Cədvəl 2**

Göstərilən müddəalara münasibət (faizlə)

| | Bəli | Qismən | Xeyr | Bilmirəm |
|---|---|---|---|---|
| Dövlətstatkom yaxşı (keyfiyyətli) statistik informasiya təqdim edir | 86.9 | 10.5 | 0.4 | 2.2 |
| Dövlətstatkomun statistik informasiyası daha vacib ictimai hadisələri əks etdirir | 81.6 | 11.8 | 1.0 | 5.6 |
| Dövlətstatkom qərəzsiz məlumatları təqdim edir | 83.4 | 6.8 | 2.4 | 7.4 |
| Dövlətstatkom öz informasiya materiallarını və xidmətlərini istifadəçilərə mütəmadi olaraq təqdim edir | 84.5 | 7.0 | 0.8 | 7.7 |

Sorğunun Dövlətstatkomun veb-səhifəsi ilə bağlı suallarına dair aşağıdakı nəticələr əldə edilmişdir:

**Cədvəl 3**

faizlə

| | Bəli | Xeyr | Bilmirəm |
|---|---|---|---|
| Veb-saytın dizaynı maraqlıdır | 85.9 | 2.3 | 11.8 |
| Veb-saytın istifadəsi asandır | 93.6 | 1.5 | 4.9 |
| Axtardığım məlumata tez daxil oluram | 90.5 | 3.6 | 5.9 |

Nəticələrdən görünür ki, ümumilikdə hər üç meyar üzrə Dövlətstatkomun veb-səhifəsi ilə bağlı rəylər müsbətdir. Sorğu iştirakçılarının 85 faizindən çoxu "bəli" cavabını qeyd etmişdir.

"Dövlətstatkom statistik məlumatları vaxtlı-vaxtında yayır?" sualına rəy bildirənlərin 87.0 faizi müsbət cavab vermişdir.

Sorğuda iştirak edənlərin 86.0 faizi Dövlətstatkomun yaydığı statistik məlumatları aktual, dolğun olduğunu hesab etmiş, 14.0 faizi isə qismən razılaşmışdır.

Sorğu iştirakçılarının 76.0 faizi Dövlətstatkomun yayım təqvimindən xəbərdar olduğunu bildirmişdir. "Dövlətstatkom statistik məlumatları yayım təqvimində göstərilmiş tarixdə yayır?" sualında iştirakçıların 98.0 faizi müsbət cavab verib. "Statistik məlumatların dəqiqləşməsi (yenidən baxılması) haqqında informasiya kifayət edicidir?" sualında isə 80.0 faiz "bəli" cavabını qeyd edib. "İstifadə etdiyiniz statistik məlumatlarla əlaqəli informasiyanı asan əldə

edirsiniz?” sualına isə sorğu iştirakçılarının 84.0 faizi müsbət cavab vermişdir. “Statistik məlumatlarla əlaqəli informasiya kifayət qədər aydın və təfsilatlıdır” bəndində isə “bəli” cavab verənlərin payı 80.0 faiz olmuşdur.

**Cədvəl 4**

İstifadəçilərə xidmət səviyyəsi ilə bağlı rəylər (faizlə)

| | Bəli | Xeyr | Rəyim yoxdur |
|---|---|---|---|
| Dövlətstatkomdan məlumatlarla bağlı izahları və ya şərhləri telefon və ya e-poçt vasitəsilə əldə edə bilirsiniz? | 73.0 | 8.0 | 19.0 |
| Dövlətstatkom statistik məlumatları asan başa düşülən formada təqdim edir? | 91.0 | 1.0 | 8.0 |

Sualın həll edilməsi tezliyi, heyətin nəzakətliliyi, informasiyanın əldə olunması üçün müvafiq əməkdaşların axtarılmasının asanlığı kimi sualları respondentlərin 70 faizindən çoxu yaxşı və yüksək qiymətləndirmişdir.

“Ümumilikdə Dövlətstatkomun fəaliyyəti ilə razı olduğunuzu necə qiymətləndirirsiniz?” sualına cavablar aşağıdakı kimidir:

faizlə

| Aşağı | Orta | Yaxşı | Yüksək | Rəyim yoxdur |
|---|---|---|---|---|
| 1.4 | 9.7 | 47.0 | 38.8 | 3.1 |

Cavablardan görmək olar ki, öz rəyini bildirənlərin böyük əksəriyyəti Dövlətstatkomun fəaliyyətindən razı qaldıqlarını bildirmişlər. Sorğu nəticələrini yekunlaşdıraraq demək olar ki, statistik məlumatların istifadəçilərinin statistik məlumatlara və onların keyfiyyətinə, statistika orqanının fəaliyyətinə münasibəti müsbətdir.

Onlayn rejimdə olan bu sorğu müntəzəm olaraq keçirilir və istifadəçilər üçün Dövlətstatkomun internet səhifəsində daim aktivdir. Bu tip sorğular Dövlətstatkomun fəaliyyətinin gələcəkdə təkmilləşdirilməli olan istiqamətlərini müəyyən etməyə imkan verir, rəsmi statistika fəaliyyətinin istifadəçilərin tələbatlarına daha dolğun cavab verməsinə, onların zəruri statistik məlumatlarla vaxtlı-vaxtında tam təmin olunması işinin keyfiyyətinin yüksəldilməsinə şərat yaradır.